

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 63 (22.974)

*7 aprel 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 6-da Bakı Ekspo Mərkəzində "AITF-2018" XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər və "HOREX Caucasus-2018" XII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olublar.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev sərgilər barədə dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verib.

Qeyd olunub ki, "Bütün dünya - bir sərgi" şüarı altında keçirilən builki sərgidə 20 ölkəni təmsil edən 277 şirkət iştirak edir. İştirakçılar arasında Azərbaycan, Bolqarıstan, Çexiya, Dominikan, Gürcüstan, İndoneziya, İtaliya, İsveçrə, Mərakeş, Rusiya, Sloveniya, Tailand, Türkiyə və digər ölkələri təmsil edən şirkətlər yer alıb. Ziyarətçilər 90-dan çox xarici turizm istiqaməti, eləcə də ölkə daxilində istirahət imkanları ilə tanış ola bilirlər. Budəfəki sərgidə müxtəlif hava yolları və otel şəbəkələri, eləcə də turizm sahəsi üzrə digər xidmət növləri təqdim edilir.

Prezident İlham Əliyev sərgi ilə tanış olub.

## İran İslam Respublikasının xarici işlər naziri Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur



Aprelin 6-da İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanında qonağı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov, Azərbaycanın İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov, Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov, İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom və digər rəsmi şəxslər qarşılamışlar.

İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif hava limanında jurnalistlərə qısa müsahibə vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəvəti əsasında muxtar respublikaya səfər etdiyini bildirən nazir bu səfərin ikitərəfli münasibətlərin inkişafına və yeni əməkdaşlıq imkanlarının yaradılmasına töhfə verəcəyini bildirmişdir.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İranın xarici işlər naziri ilə görüşmüşdür





Aprelin 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif ilə görüşmüşdür.

Ali Məclisin Sədri dəvətini qəbul edib Naxçıvan Muxtar Respublikasına səfər etdiyinə görə Məhəmməd Cavad Zərifə təşəkkür etmişdir. Ali Məclisin Sədri ötən il İran İslam Respublikasına səfəri zamanı göstərilən qonaqpərvərliyə, eləcə də səfərdən ötən qısa zaman ərzində əlaqələrin inkişafı sahəsində görülən işlərə görə İranın xarici işlər nazirinə bir daha təşəkkürünü bildirmişdir. Qeyd olunmuşdur ki, hökumətlərarası komissiyanın növbəti iclasında əlaqələrin inkişafı sahəsində digər məsələlərin də həlli nəzərdə tutulub.

Ali Məclisin Sədri demişdir: Bu gün hər iki ölkə prezidentlərinin səyi ilə Azərbaycan-İran əlaqələri uğurla inkişaf edir. Qısa müddət ərzində Azərbaycan və İran prezidentlərinin 11 dəfə görüşməsi, həyata keçirilən qarşılıqlı səfərlər ikitərəfli münasibətlərin daha da inkişafına səbəb olmuşdur. Ölkələrimiz arasında siyasi və iqtisadi sahədə əməkdaşlıq getdikcə genişlənir. İran İslam Respublikasının xarici işlər nazirinin muxtar respublikaya səfəri də əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Səfər zamanı keçirilən görüşlər və aparılan müzakirələr əməkdaşlığın genişlənməsinə böyük təkan verəcəkdir. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında da əlaqələr müxtəlif sahələr üzrə inkişaf etdirilir. Nəqliyyat, təhsil, iqtisadi-ticarət, energetika, gömrük, dəmir yolu və digər sahələrdə uğurlu əməkdaşlıq vardır. Naxçıvan-Təbriz-Məşhəd-Naxçıvan beynəlxalq sərnişin qatarının və avtobus marşrutlarının fəaliyyət göstərməsi, İrandan olan tələbələrin Naxçıvanda təhsil alması, qarşılıqlı gediş-gəlişin artması bunu bir daha təsdiq edir.

Ali Məclisin Sədri xalqlarımız arasında mehriban münasibətlərin olduğunu diqqətə çatdırmış, bunu qarşılıqlı əlaqələrin göstəricisi kimi dəyərləndirmiş, münasibətlərin bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirmişdir.

Məhəmməd Cavad Zərif Naxçıvanda olmaqdan məmnunluğunu bildirmiş, göstərilən səmimi münasibətə görə minnətdarlıq edərək demişdir: Naxçıvan Muxtar Respublikasının inkişafı göz qabağındadır. Bu da əlaqələrin inkişafı üçün geniş imkanlar açır. İran İslam Respublikası Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir. Hazırda ölkələrimiz arasındakı əlaqələr ən yüksək səviyyədədir. Son illər dövlət başçıları arasında keçirilən görüşlər və qəbul olunan qərarlar bunu bir daha təsdiq edir. İranın Şərqi və Qərbi Azərbaycan Vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasındakı mövcud əlaqələrin daha da genişləndirilməsi və əməkdaşlığın müxtəlif sahələrdə inkişafı üçün yaxşı potensial vardır. Naxçıvan şəhəri 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı, Təbriz şəhəri isə İslam Dünyasının Turizm paytaxtı seçilmişdir. Bu da imkan verir ki, turizm və mədəniyyət sahəsində əlaqələr daha da inkişaf etsin.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Cavad Cahangirzadə və Naxçıvandakı Baş konsulu Mənsur Ayrom, Azərbaycan Respublikasının İrandakı səfiri Bünyad Hüseynov və Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov görüşdə iştirak etmişlər.

*Ardı 2-ci səhifədə*

## Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq



Həmin gün İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif Duzdağ Fizioterapiya Mərkəzində olmuşdur.

Qonağın diqqətinə çatdırılmışdır ki, 1979-cu ildə duz mədənlərinin bazasında yaradılan Duzdağ Fizioterapiya Mərkəzində bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Burada havanın temperaturu və rütubət sabitdir. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzə dünyanın bir çox ölkələrindən müraciətlər olur. Mərkəzdə İran İslam Respublikasının müxtəlif bölgələrindən olan insanlar da müalicə olunurlar.

Sonra İranın xarici işlər naziri ölkəsinin Naxçıvandakı Baş Konsulluğuna gəlmiş, konsulluğun əməkdaşları ilə görüşmüş və onların iş şəraiti ilə maraqlanmışdır.

## İranın xarici işlər naziri Naxçıvan Dövlət Universitetində olmuşdur





Aprelin 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif Naxçıvan Dövlət Universitetində olmuşlar.

Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmov İran İslam Respublikasının xarici işlər nazirini salamlayaraq demişdir ki, 1967-ci ildə yaradılan Naxçıvan Dövlət Universiteti ötən 50 ildə böyük inkişaf yolu keçib. 108 hektar sahədə yerləşən universitetdə 16 tədris korpusu, Elektron Kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Xəstəxana, Olimpiya-İdman Mərkəzi, Baytarlıq Təbabəti Klinikası, Tələbə evi və Universitet Media Mərkəzi yaradılmışdır. Universitetdə elektron idarəetmə və tədris sistemi istifadəyə verilmiş, kadr hazırlığına diqqət artırılmışdır. Hazırda universitetdə tarix-filologiya, pedaqoji, iqtisad, beynəlxalq münasibətlər və xarici dillər, fizika-riyaziyyat, memarlıq və mühəndislik, təbiətşünaslıq və kənd təsərrüfatı, sosial idarəetmə və hüquq, incəsənət, tibb fakültələri, eləcə də magistratura, xarici tələbələrlə iş üzrə dekanlıq və Distant Tədris Mərkəzi fəaliyyət göstərir.

Qeyd olunmuşdur ki, Naxçıvan Dövlət Universitetində 58 ixtisas üzrə bakalavr, 68 ixtisas üzrə magistr, 35 ixtisas üzrə doktorant hazırlığı aparılır. Hazırda universitetdə 5317 bakalavr, 238 magistr, 188 doktorant təhsil alır. Bununla yanaşı, 9 xarici ölkədən 300-ə yaxın tələbə təhsil alır. Universitetdə elmi-pedaqoji fəaliyyətlə 421 müəllim məşğul olur ki, onun da 2-si akademik, 7-si AMEA-nın müxbir üzvü, 16-sı elmlər doktoru, 153-ü fəlsəfə doktorudur. Universitetdə dissertasiya şurası fəaliyyət göstərir. Hazırda universitetdə 48 elektron lövhə, 780 kompüter, 14 internet mərkəzi vardır. Bu da yeni təlim üsullarının, o cümlədən elektron təhsilin tətbiqinə əlverişli şərait yaradır. Milli reytinq tədqiqatlarının nəticələrinə əsasən Naxçıvan Dövlət Universiteti Azərbaycanda fəaliyyət göstərən 19 dövlət, 9 qeyri-dövlət ali təhsil müəssisəsi arasında 2 dəfə birinci yerə layiq görülüb.

İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif universitetin tələbələri üçün İran-Azərbaycan münasibətlərinə dair mühazirə oxumuşdur. Nazir müasir dövrdə ölkələr arasındakı əlaqələrin vəziyyətinə nəzər salmış, İran-Azərbaycan münasibətlərinin nümunə gücündə olduğunu bildirmiş, sülhün və beynəlxalq təhlükəsizliyin təmin olunması sahəsində birgə təşəbbüslərin əhəmiyyətini qeyd etmişdir.

* * *



Aprelin 6-da İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır.

Naxçıvan Beynəlxalq Hava Limanında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifi yola salmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ailə təsərrüfatlarının inkişafına diqqət artırılır

*Ölkəmizdə həyata keçirilən inkişaf strategiyasının əsas prioritetlərindən biri də ucqar yaşayış məntəqələrində kiçik və orta sahibkarlığın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin olunmasıdır. Məhz ucqar ərazilərdə bu yolla daha çox iş imkanlarının yaradılması dövlətimiz tərəfindən həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsi kimi diqqəti cəlb edir.*

Bazar iqtisadiyyatı şəraitində yeni iş yerlərinin yaradılmasında özünüməşğulluq modelindən istifadə dünya təcrübəsində geniş tətbiq olunur. Muxtar respublikamızda da təbii ehtiyatlardan və əmək potensialından istifadə olunmaqla bu sahənin inkişaf etdirilməsi son dövrlərdə daha intensiv şəkildə həyata keçirilir. Belə ki, ailə təsərrüfatları yaratmaqla özünüməşğulluğun təmin olunması sadə idarəetmə yolu ilə konkret bir məhsul və ya xidmətin istehsalı üzrə bazar tələbatının ödənilməsi və şübhəsiz, bunun vasitəsilə də belə təsərrüfatlarda məşğul olan insanların gəlirlərinin artırılması deməkdir. Bazarda formalaşmış tələbə çevik uyğunlaşan, biznesini günün tələbləri səviyyəsində qura bilən, iqtisadi resurslara, xüsusən enerji, xammal və maliyyə ehtiyatlarına qənaətlə yanaşan belə təsərrüfatçılıq subyektləri inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulun yaradılmasında mühüm paya malikdir.

Ailə təsərrüfatlarının iqtisadi inkişafdakı bu rolunu nəzərə alaraq muxtar respublikamızda da onların fəaliyyətlərinin stimullaşdırılması, genişləndirilməsi üçün güzəştli kreditlərin verilməsi davam etdirilir. Belə ki, cari ildə güzəştli kerditlər təqdim olunan sahibkarlıq subyektləri arasında 5 ailə təsərrüfatı da vardır. Onlara, ümumilikdə, 50 min manatdan artıq həcmdə kredit verilib. Hazırda isə muxtar respublikamızda 1000-ə yaxın ailə təsərrüfatı vardır ki, onların da 200-ə yaxını iri təsərrüfatçı hesab olunur. Heyvandarlıq, quşçuluq, arıçılıq məhsullarının istehsalı, bağçılıq və bostançılıq, istixana, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi üzrə ixtisaslaşmış və sair bu kimi sahələrdə ailə təsərrüfatları ilin bütün mövsümlərində bazara məhsul çıxarırlar.

Ailə təsərrüfatları təkcə özünüməşğulluq vasitəsi sayılmır. Onlar həm də geniş biznes üçün ilk təcrübə deməkdir. Bu təcrübə, xüsusən ucqar yaşayış məntəqələrində yaşayan insanların iş qurması ilə məskunlaşdığı ərazilərə məxsus olan yeni biznes imkanlarının reallaşmasına səbəb olur. Bu gün ailə təsərrüfatı ilə kiçik biznesə başlayanlar sabah fiziki şəxs, sonra isə daha böyük sahibkarlar kimi mühüm biznes layihələri reallaşdırmağa başlayırlar. Bu da sahibkarlığın daha da genişləndirilməsi və iqtisadi sahələrin şaxələndirilməsi deməkdir. Muxtar respublikamızda bütün bu müsbət cəhətlər nəzərə alınaraq ailə təsərrüfatları məşğulluq probleminin həll olunmasında, əhali gəlirlərinin həcminin artmasında müsbət bir amil kimi qiymətləndirilir. Buna görə belə təsərrüfatların yaradılmasına üstünlük verilmişdir.

Naxçıvan özünün yüksəkkeyfiyyətli yerli məhsulları ilə tanınır. Bu məhsulların həcm və çeşidinin artması muxtar respublikanın istehsal və ixrac imkanlarını daha da genişləndirir. Regiondakı ailə təsərrüfatları da bu sahədə fəaliyyətlərini genişləndirməklə yaradılmış şəraitdən səmərəli istifadə edirlər.

**✍ Əli CABBAROV**

## Rabitə evi üçün yeni bina inşa edilir



Muxtar respublikada rabitə sektoruna investisiyaların cəlb edilməsi nəticəsində istismarda olan avtomat telefon stansiyaları müasir tələblərə cavab verən yeni rabitə sistemi ilə əvəz olunub. Ən ucqar dağ kəndlərində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilib. Həyata keçirilən tədbirlərin bir qismini də rabitə və poçt xidmətlərinin səviyyəsinin yüksəldilməsi üçün bu sahədə tikinti-quruculuq işlərinin aparılması təşkil edir. Bu işlərin davamı kimi hazırda Ordubad şəhərində rayon Rabitə Evi üçün yeni bina inşa olunur.

Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada dam örtüyü vurulub, pəncərələrin salınması üçün tamamlama işləri aparılıb. Eyni zamanda obyektdə kommunikasiya xətlərinin çəkilməsi başa çatdırılıb. Hazırda binanın fasadında üzləmə işləri aparılır, daxildə döşəməyə üzlük daşlar vurulur. Tikilinin arxa hissəsində isə istinad divarı üçün beton-qəlib işləri davam etdirilir.

Yeni binada rabitəçilər üçün müasir iş şəraiti yaradılması, rabitə və poçt xidmətlərinin keyfiyyətinin yüksəldilməsi nəzərdə tutulur.

**Xəbərlər şöbəsi**

***Aprel ayının 11-də Azərbaycan Respublikası Prezidentinin seçkiləri keçiriləcək. Kütləvi informasiya vasitələrindən də məlum olduğu kimi, bununla əlaqədar ölkəmizdə, eləcə də muxtar respublikamızda seçkilərə ciddi hazırlıq işləri aparılıb. Naxçıvan Muxtar Respublikasında prezident seçkilərinə hazırlığın vəziyyəti ilə bağlı oxucularımızı ətraflı məlumatlandırmaq üçün Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımova müraciət etdik:***

*11 aprel Azərbaycan Respublikası Prezidentinin seçkiləri günüdür*

## Prezident seçkilərinin azad və demokratik şəkildə keçirilməsi üçün muxtar respublikada da hər cür şərait yaradılıb



*– Məhərrəm müəllim, növbəti Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi ilə bağlı muxtar respublikada seçki kampaniyasına hazırlıq işləri hansı səviyyədə aparılıb?*

– Aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlığa seçki komissiyaları seçici siyahılarının tərtibi ilə başlamış, bu mühüm proses muxtar respublikamızda da uğurla başa çatdırılmışdır. Naxçıvan Muxtar Respublikasında yerləşən 7 dairə seçki komissiyası seçici siyahılarını dəqiqləşdirərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir. Seçici siyahılarının tərtibi və dəqiqləşdirilməsində yerli icra hakimiyyəti orqanlarının, bələdiyyə qurumlarının, Daxili İşlər Nazirliyinin pasport-qeydiyyat qurumlarının və mənzil-istismar sahələrinin təqdim etdikləri məlumatlardan istifadə olunmuşdur. Məsul şəxslərin iştirakı ilə dəqiq seçici siyahıları tərtib olunmuşdur. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi ilə sıx əməkdaşlıq qurulmaqla bütün rayonlarda şəxsiyyət vəsiqəsi almamış və ilk dəfə səs verəcək vətəndaşların seçki günündək şəxsiyyət vəsiqələri ilə təmin olunmaları üçün lazımi tədbirlər görülmüşdür. Tərtib olunmuş vahid seçici siyahıları üzrə aparılmış dəqiqləşdirmələrdən sonra Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 7 seçki dairəsi üzrə, ümumilikdə, 262 min 874 nəfər aktiv seçki hüququna malik seçici qeydə alınmışdır. Seçicilərin 1368 nəfəri 18 yaşı yeni tamam olmuş və ilk dəfə səs verən vətəndaşlardır. 2016-cı ildə keçirilmiş Referendum ilə müqayisədə muxtar respublika üzrə seçicilərin sayı 1661 nəfər, yəni 0,6 faiz artmışdır.

Muxtar respublikada fəaliyyət göstərən hərbi qulluqçuların və cəzaçəkmə müəssisələrində cəzaçəkən məhkumların da seçki hüquqlarının təmin edilməsi ilə bağlı müvafiq tədbirlər görülmüşdür. Belə ki, Əlahiddə Ümumqoşun Orduda xidmət edən hərbi qulluqçular seçkilərə 5 gün qalmış yaradılacaq 21 qapalı və 3 ümumi seçki məntəqəsində, Sərhəd Qoşunlarının hərbi qulluqçuları 1 qapalı və 19 ümumi seçki məntəqəsində, Daxili Qoşunlarda qulluq edən hərbi qulluqçular 1 qapalı seçki məntəqəsində və Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində cəzaçəkən məhkumlar 1 qapalı seçki məntəqəsində səs verəcəklər.

Xüsusilə qeyd etmək istəyirəm ki, seçki günündək adı seçici siyahısına düşməyən seçicilər müvafiq məntəqə seçki komissiyasına müraciət edərək seçici siyahısına daxil edilə bilərlər. Hətta seçki günü də seçicilər əlavə seçici siyahıları ilə səs verə biləcəklər. Məhz buna görə də seçici siyahılarının dəqiqləşdirilməsi prosesi seçki günündək davam edəcəkdir. Naxçıvan Muxtar Respublikasından kənarda təhsil alan tələbələr, eyni zamanda seçki günü yaşadığı ərazidə olmayan seçicilər qeydiyyatdançıxma vəsiqəsi ilə olduqları yerdə səs verə biləcəklər.

*– Bəs muxtar respublikamızda fəaliyyət göstərən seçki komissiyalarının seçkiyə hazırlığı necə aparılıb?*

– Dairə seçki komissiyaları öz fəaliyyətlərini Təqvim Planına əsasən təşkil etmişdir. Muxtar respublikada fəaliyyət göstərən 7 seçki dairəsi və 316 seçki məntəqəsi aprel ayının 11-də keçiriləcək prezident seçkilərinə tam hazırdır. Belə ki, həm seçki dairələri, həm də seçki məntəqələri tələb olunan bütün inventar və avadanlıqlarla təmin olunmuşlar.

Muxtar respublika üzrə 316 seçki məntəqəsi fəaliyyət göstərir ki, bunun 292-si mülki, 24-ü isə hərbi məntəqələrdir. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən seçkilərə hazırlıqla bağlı müəyyən tədbirlər həyata keçirilmişdir. Belə ki, seçki dairələri internet xətti ilə təmin olunmuş, seçki məntəqələrinin rabitə xətləri yoxlanılmış və çatışmazlıqlar aradan qaldırılmış, səsvermə prosesinin internet vasitəsilə canlı olaraq izlənə bilməsi üçün bütün seçki dairələrini əhatə etməklə muxtar respublikada fəaliyyət göstərən 35 seçki məntəqəsində veb-kameralar quraşdırılmışdır. Muxtar respublikamızda fəaliyyət göstərəcək bütün seçki məntəqələrinin yerləşdikləri binalar ən yüksək səviyyədə olmaqla, lazımi inventarla təchiz edilərək komissiya üzvlərinin istifadəsinə verilmişdir. Seçicilərin rahat və demokratik prinsiplər çərçivəsində səsvermədə iştirakları, eyni zamanda yerli və xarici müşahidəçilərin, qeydə alınmış namizədlərin vəkilləri və səlahiyyətli nümayəndələrinin seçkilərin gedişini rahat şəkildə müşahidə edə bilmələri üçün hər cür şərait yaradılmışdır.

*– Seçki komissiyaları üzvlərinin seçki prosesi ilə əlaqədar nəzəri və praktik baxımdan maarifləndirilməsi istiqamətində nə kimi işlər görülüb?*

– Seçkilərə hazırlıq dövründə komissiya üzvlərinin maarifləndirilməsi işi də kənarda qalmamış, 15 fevralda dairə seçki komissiyası sədrlərinin iştirakı ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasında seminar-müşavirə keçirilmişdir. Muxtar respublikamızda fəaliyyət göstərən 7 dairə seçki komissiyasının sədrləri də bu seminar-müşavirədə iştirak etmişdir. Muxtar respublikada fəaliyyət göstərən bütün dairələr üzrə məntəqə seçki komissiyalarının sədr və katibləri üçün 2018-ci il 20-22 fevral tarixlərdə seminarlar təşkil olunmuşdur. Əlavə olaraq dairə seçki komissiyalarında fəaliyyət göstərən ekspert və treninq qruplarının üzvləri, kompüter operatorları müxtəlif vaxtlarda Bakı şəhərində keçirilmiş seminarlarda iştirak etmişlər. Məntəqə seçki komissiyası üzvlərinin maarifləndirilməsi işi də mütəmadi olaraq davam etdirilib. Belə ki, 12-16 mart tarixlərdə muxtar respublikada fəaliyyət göstərən dairə seçki komissiyaları məntəqə seçki komissiyalarının üzvləri üçün seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, səslərin sayılması və protokolların doldurulması da daxil olmaqla, bütün səsvermə günü prosedurlarının izahı ilə əlaqədar seminarlar keçirmişlər. Bu seminarlar yerli kütləvi informasiya vasitələrində işıqlandırılmışdır. Bu proses, xüsusilə də yekun protokolların doldurulması qaydalarının izahı seçki günündək davam ediriləcəkdir.

*– 11 apreldə səsvermə nə vaxt başlayıb nə vaxt bitəcək?*

– Seçkilər günü səsvermə saat 8-dən 19-a kimi keçirilir. Seçicilər səhər saat 8-dən etibarən şəxsiyyət vəsiqələri və ya şəxsiyyəti təsdiq edən digər sənədlərlə seçki məntəqələrinə gəlib səs verə bilərlər.

*– Seçki günü seçki məntəqələrində kimlər ola bilər?*

– Seçkilər günü seçki məntəqəsində məntəqə seçki komissiyasının, Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyasının üzvləri, qeydə alınmış namizədlərin səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, akkreditasiyadan keçmiş beynəlxalq və yerli müşahidəçilər, kütləvi informasiya vasitələrinin nümayəndələri, seçicilər (o cümlədən səsvermənin həyata keçirilməsi zamanı yardıma ehtiyacı olan seçicilərə kömək edən şəxslər) ola bilərlər. Yalnız səsvermə hüququnu həyata keçirən zaman və ya məntəqə seçki komissiyası sədrinin dəvəti ilə ictimai asayişi bərpa etmək üçün xidməti geyim formasında olan polis işçiləri, yaxud texniki problemləri həll etmək üçün müvafiq mütəxəssislər, zəruri yardıma ehtiyac olan hallarda isə kömək üçün dəvət edilən mütəxəssislər (təcili tibbi yardım, yanğınsöndürmə və sair üzrə mütəxəssislər) seçki məntəqəsində ola bilərlər. Lakin onlar vəzifələrini icra edən kimi seçki məntəqəsini tərk etməlidirlər.

*– Seçici adını seçicilər siyahısında tapmadığı təqdirdə nə etməlidir?*

– Bu zaman seçici onun səsvermə hüququnu yoxlayan məntəqə seçki komissiyasının üzvünə yaxınlaşaraq adının siyahıya salınması üçün həmin komissiyanın sədrinə müraciət etməsini xahiş edir. Seçicinin adının əlavə seçici siyahısına salınması və ya salınmaması yalnız məntəqə seçki komissiyasının qərarı əsasında olur. Bunun üçün əsas kimi həmin seçki məntəqəsinin ərazisində müvafiq polis orqanları tərəfindən verilmiş daimi və ya müvəqqəti qeydiyyatda olmasını təsdiqləyən və sair bu kimi sənədlər əsas götürülə bilər.

*– Seçici səs vermək üçün hansı sənədləri təqdim etməlidir?*

– Seçici səs vermək üçün aşağıdakı sənədlərdən birini təqdim etməlidir: Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqəsini, qaçqın və məcburi köçkün vətəndaşlar şəxsiyyət vəsiqəsi yoxdursa, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən müəyyənləşdirilmiş formalı vəsiqəni, həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular zabitin şəxsi vəsiqəsi və ya hərbi biletini, barələrində həbs qətimkan tədbiri seçilərək istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənədi, azadlıqdan məhrumetmə yerlərində və xüsusi müəssisələrdə cəza çəkən məhkumlar Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş məhkumun şəxsiyyətini təsdiq edən sənədi. Əks-təqdirdə məntəqə seçki komissiyasının seçicini qarşılayan və barmağını mürəkkəblə işarələnməsini yoxlayan üzvü həmin seçiciyə bu halda səs verməsinin qeyri-mümkünlüyünü və tələb olunan şəxsiyyəti təsdiqləyən sənədlə gəlməsini izah edir.

*– Seçiciyə hansı halda seçki bülleteni verilməyə bilər?*

– Seçici tələb olunan şəxsiyyəti təsdiqləyən sənədlə gəlmədikdə, sol əlinin baş barmağının gözəgörünməyən mürəkkəblə işarələnməsi təklifi ilə razılaşmadığı və ya seçicinin barmağı artıq mürəkkəblə işarələndiyi kimi hallara təsadüf edildikdə seçiciyə seçki bülleteni verilməyə bilər.

*– Əgər seçici səsvermə bülletenini korlayarsa, onun səsvermədə təkrar iştirakı necə təmin edilməlidir?*

– Bu halda seçici korlanmış səsvermə bülletenini ona bülleten vermiş məntəqə seçki komissiyasının üzvünə qaytarmalıdır. Məntəqə seçki komissiyasının məsul üzvü korlanmış səsvermə bülletenini seçicidən alır, onu yarıdan kəsməklə ləğv edir və korlanmış səsvermə bülletenləri üçün nəzərdə tutulmuş ayrıca zərfə qoyur. Bundan sonra seçiciyə yeni səsvermə bülleteni verilir. Seçicinin səsvermə bülletenini korlaması və ona yenisinin verilməsi barədə seçicilər siyahısında seçicinin soyadından sağda müvafiq qeyd edilərək seçiciyə dərhal boş səsvermə kabinəsinə keçməsi, yenidən səs verməsi və seçki məntəqəsini tərk etməsi barədə təlimat verilir. Hər bir korlanmış səsvermə bülleteni barədə ayrıca akt tərtib edilir.

*– Bəs səsvermə bülletenini doldurmaqda çətinlik çəkən seçicilərə necə kömək etmək olar?*

– Bildiyiniz kimi, səsvermə kabinəsində seçici səs verərkən digər seçicinin kabinəyə daxil olması qadağandır. Lakin səsvermə bülletenini almaqda və ya doldurmaqda köməyə ehtiyacı olan seçici məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər istisna olmaqla, aktiv seçki hüququ olan istənilən başqa şəxsə müraciət edə bilər. Seçiciyə səsvermə bülletenini almaqda və ya doldurmaqda kömək edən şəxs öz adını və soyadını göstərməklə, seçici siyahısının "seçicinin səsvermə bülletenini alması haqqında imza" qrafasında imza etməlidir. Bülleteni doldurmaq üçün seçici və ona kömək edən şəxs dərhal boş səsvermə kabinəsinə daxil olur. Səsvermədən sonra seçicidən və ona kömək edən şəxsdən seçki məntəqəsini tərk etmələri tələb edilir.

*– Səsvermə günü müxtəlif səbəblərdən muxtar respublika ərazisində olmayan seçicilər necə səs verə bilərlər?*

– Seçicilər siyahısına daxil edilmiş, lakin hər hansı səbəbə görə səsvermə günü seçki məntəqəsində səs vermək imkanı olmayan seçici səsvermə gününə 3 gün qalanadək müvafiq məntəqə seçki komissiyasında qeydiyyatdançıxma (səsvermə) vəsiqəsini ala və həmin vəsiqə əsasında səsvermə günü olduğu ərazidəki seçki məntəqəsində səs verə bilər. Səsvermə vəsiqəsi müvafiq seçki komissiyası tərəfindən seçicinin ərizəsi əsasında seçiciyə və ya notariat qaydasında təsdiq edilmiş vəkalətnamə əsasında onun nümayəndəsinə verilir. Ərizədə seçicinin səsvermə vəsiqəsi almasının səbəbləri göstərilməlidir. Ərizə verildiyi gündən başlayaraq iki gün müddətində məntəqə seçki komissiyası dairə seçki komissiyasına müraciət edərək, seçicinin əvvəl səsvermə vəsiqəsini alıb-almaması faktını araşdırmalıdır. Bir seçiciyə bir neçə səsvermə vəsiqəsinin verilməsi qadağandır.

*– Səsvermə günü səhhətinə və ya digər üzrlü səbəblərə görə seçki məntəqəsinə gələ bilməyən seçicilərin səsvermədə iştirakı üçün hansı şərait yaradılıb?*

– Səsvermə günü səhhətinə görə və ya digər üzrlü səbəblərdən seçki məntəqəsinə gələ bilməyən vətəndaşların daşınan səsvermə qutusu ilə səsvermə otağından kənarda səs vermək hüququ vardır. Bu şəxslər səsvermə gününə qədər bu barədə məntəqə seçki komissiyasına yazılı və ya şifahi müraciət etməlidirlər. Bu halda onlara məntəqə seçki komissiyası tərəfindən səsvermədə iştirak etmək imkanı yaradılır. Dairə seçki komissiyası səsvermə otağından kənarda səs vermək üçün məntəqə seçki komissiyasına edilmiş müraciətləri səsvermə gününə azı 12 saat qalmışadək təsdiq edir. Əgər seçici səsvermə otağından kənarda səs vermək üçün əvvəlcədən ərizə yazmayıbsa və yalnız şifahi müraciət edibsə, ərizəni onlara gəlmiş məntəqə seçki komissiyası üzvlərinin yanında yazmalıdır.

*– Qeyd etdiklərinizdən belə qənaətə gəlmək olar ki, növbəti prezident seçkiləri də mütəşəkkil, demokratik və şəffaf şəkildə keçiriləcəkdir...*

– Azərbaycan Respublikasında xalqın müqəddəratını həll edəcək qədər çox məsuliyyətli bir siyasi prosesin – seçki prosesinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün fundamental qanunvericilik bazası yaradılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin tövsiyə və tapşırıqları əsasında keçirilmiş seçkilərdə əldə olunan praktik təcrübədən bəhrələnərək ən mükəmməl Seçki Məcəlləsi hazırlanmışdır. Bu da seçki komissiyalarının iş fəaliyyətlərinin düzgün qurulmasında başlıca amil rolunu oynayır. Komissiya üzvləri bu mükəmməl Seçki Məcəlləsinin müddəalarına əməl etməklə öz üzərlərinə düşən məsul vəzifənin öhdəsindən layiqincə gələcək, əvvəlki seçkilərdə olduğu kimi, növbəti seçkinin də şəffaf, demokratik, dünya standartlarına uyğun keçirilməsi üçün bilik və bacarıqlarını əsirgəməyəcək, seçki komissiyalarına göstərilən etimadı ən yüksək səviyyədə doğruldacaqlar.

Sonda onu da qeyd etmək istərdim ki, muxtar respublikadakı seçki məntəqələrinin həm maddi-texniki bazası, həm də komissiya üzvlərinin peşəkarlığı imkan verir ki, seçkilər azad və demokratik şəraitdə keçirilsin. Seçicilərdən isə xahişimiz budur ki, seçkilər günü seçki məntəqələrinə gələrək seçki hüquqlarından azad və demokratik şəraitdə istifadə etsinlər.

*– Maraqlı müsahibə üçün sağ olun!*

**Mehriban SULTAN**

## Naxçıvan Muxtar Respublikası Futbol Federasiyası Müstəqil Futbol Federasiyasına üzv qəbul olunub

Martın 27-də Müstəqil Futbol Federasiyasının (CONİFA) illik üzvlük iclası keçirilib.

İclasda üzvlüklə bağlı məsələlər müzakirə olunmuş və səsvermə keçirilmişdir. Səsvermənin nəticələrinə əsasən Naxçıvan Muxtar Respublikası Futbol Federasiyası Müstəqil Futbol Federasiyasına (CONİFA) üzv qəbul olunub.

Qeyd edək ki, hazırda Müstəqil Futbol Federasiyasının 47 üzvü vardır. Federasiya iki ildən bir futbol üzrə dünya və Avropa çempionatları təşkil edir. 2019-cu ildən etibarən isə futbol üzrə Asiya çempionatı keçirəcəkdir.

Bu il 31 may-9 iyun tarixlərində London şəhərində keçiriləcək dünya çempionatında və çempionat çərçivəsində təşkil olunacaq bayraq mərasimində Naxçıvan Muxtar Respublikasının nümayəndəsi iştirak edəcək və ölkə bayrağı qaldırılacaqdır.

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının Müstəqil Futbol Federasiyasına (CONİFA) üzv qəbul olunması muxtar respublikada futbolun inkişafına töhfə verəcək və beynəlxalq aləmdə Naxçıvanın daha yaxşı tanıdılmasına və təbliğinə imkan yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*7 aprel Ümumdünya Sağlamlıq Günüdür*

# İnsan sağlamlığı cəmiyyətin ən qiymətli sərvətidir



***7 aprel bütün dünyada Sağlamlıq Günü kimi qeyd olunur. Bu tarix 1948-ci il aprelin 7-də BMT-nin xüsusi agentliyi kimi yaradılan Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətə başlaması ilə əlaqədardır.***

Azərbaycanda səhiyyənin inkişafı və tərəqqisi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən ümummilli liderimiz səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi qiymətləndirərək demişdir: ***“Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun inkişafı üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir”.***

Tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri son illər dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu bütün istiqamətlərdə, eləcə də səhiyyə sahəsində layiqincə davam etdirir. Səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş dövlət proqramlarının həyata keçirilməsi vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin və keyfiyyətinin artmasına imkan vermişdir.

Ümummilli liderimizin səhiyyə sahəsində müəyyənləşdirdiyi strateji xətt ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da uğurla davam etdirilir, əhalinin sağlamlığının qorunması istiqamətində tibbi profilaktikanın genişləndirilməsi, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası daim diqqət mərkəzində saxlanılır. Ötən dövr ərzində aparılan genişmiqyaslı islahatlar çərçivəsində Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika-Müalicə Mərkəzi, Doğum Mərkəzi, Duzdağ Fizioterapiya, Kardioloji, Onkoloji, Yoluxucu Xəstəliklər, Gigiyena və epidemiologiya mərkəzləri, Psixi və Ağciyər Xəstəlikləri dispanserləri, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək Rayon Mərkəzi xəstəxanaları, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Naxçıvan Uşaq Bərpa Mərkəzi, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi, Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi, kəndlərdə həkim ambulatoriyaları və feldşer-mama məntəqələri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Təkcə ötən il Şərur Rayon Mərkəzi Xəstəxanasında əsaslı təmir işləri aparılaraq yeni avadanlıqlar quraşdırılmış, Ordubad rayonunun Üstüpü kəndində həkim ambulatoriyası, Naxçıvan şəhərinin Tumbul, Qaraxanbəyli, Şərur rayonunun Çəmənli, Arpaçay, Qarahəsənli, Ələkli, Babək rayonunun Payız, Gərməçataq kəndlərində feldşer-mama məntəqələri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Bundan əlavə, Duzdağ Fizioterapiya Mərkəzində yeraltı bölmədə əlavə palata yaradılmaqla çarpayı sayı 280-ə çatdırılmışdır. Bu il yanvarın 11-də isə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının yenidənqurmadan sonra istifadəyə verilməsi uşaq əhalisinə göstərilən tibbi xidmətin səviyyəsini daha da yüksəltmişdir.

Dövlət başçısı cənab İlham Əliyev muxtar respublikada uğurla həyata keçirilən səhiyyə islahatlarını yüksək qiymətləndirərək demişdir: ***“Mən çalışıram və istəyirəm ki, Azərbaycanın hər bir yerində yüksəksəviyyəli tibbi xidmət göstərilsin. Çox şadam ki, Naxçıvanda bu sahədə böyük işlər görülür, böyük uğurlar əldə edilir”.***

Naxçıvan Muxtar Respublikasında tibb ocaqlarının müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchiz edilməsi, lazımi şəraitin yaradılması hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan yaradır.

Bütün ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi barədə ölkə Prezidentinin müvafiq tapşırığı hər il muxtar respublikamızda da uğurla icra olunur. Dispanserizasiya işini daha da yaxşılaşdırmaq məqsədilə yerlərdə davamlı olaraq əhalinin müxtəlif yaş qruplarının müayinə-müalicə işi, səhiyyə, təhsil və mədəniyyət müəssisələrində mammoqrafiya müayinələri aparılır. Hepatit B və C virus infeksiyalarının qarşısının alınması tədbirlərinin genişləndirilməsi məqsədilə verilən tapşırıqlar Səhiyyə Nazirliyinin fəaliyyətində prioritet istiqamətlərdən biridir. Hazırda əməliyyat, doğuş həyata keçirilən bütün tibb müəssisələrində xəstələrdə hepatit B və C viruslarının ekspres metodla müayinəsi aparılır, nəticəsi müsbət olan xəstələr əlavə olaraq Yoluxucu Xəstəliklər Mərkəzində müayinələrə cəlb olunur. Nikaha daxil olan vətəndaşlarda İİV, QİÇS və digər xəstəliklərlə yanaşı, hepatit B, C viruslarının yoxlanılması da həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı”nın icrası da diqqət mərkəzində saxlanılır, kiçikyaşlı uşaqlar arasında tuberkulin sınağı və poliomielit xəstəliyinin profilaktikası, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji müayinələri də uğurla davam etdirilir.

Hazırda səhiyyə sistemində tibbi xidmətin əhatə dairəsini genişləndirmək, əhaliyə yerindəcə keyfiyyətli tibbi xidmət göstərmək prioritet istiqamətlərdən biridir. Bu məqsədlə çoxprofilli həkim briqadaları aran, eləcə də ucqar dağ və sərhəd kəndlərində olur, əhaliyə lazımi tibbi xidmət göstərirlər. Bu da xəstəliklərin qarşısının alınması, onların erkən aşkar edilməsi və vaxtında tam müalicə olunması baxımından son dərəcə əhəmiyyətlidir.

Bu gün səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır. Ötən il muxtar respublika rəhbərinin göstərişi ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi Ekstrakorporeal Membran Oksigenasiyası (ECMO) kimi insan həyatı üçün mühüm olan cihazla təmin olunub. Bu və digər səhiyyə müəssisələri Təcili yardım, Elektrokardioqrafiya, Exokardioqrafiya, EKQ-tredmil, Mobil rentgen, Kardiomonitorlar, Çoxprofilli diaqnostika, Hemodializ, Cərrahiyyə, Kardiocərrahiyyə şöbələri, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji və tam komplektləşdirilmiş fizioterapevtik kabinələr, hematransfuzioloji briqada fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməkliyi ilə müxtəlif üzv və sistemlərin hərtərəfli müayinəsi mümkündür.



Bakı şəhərindən yüksəkixtisaslı mütəxəssislərin dəvət olunaraq müxtəlif cərrahi əməliyyatlar aparmaları, humanitar tibbi aksiyaların keçirilməsi ənənə halını almışdır. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanası, Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanası, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və digər tanınmış səhiyyə müəssisələri ilə qarşılıqlı əlaqələr aztəminatlı ailələrdən olan xəstələr üçün mənəvi dəstək olmuşdur. Hazırda aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri çərçivəsində açıq ürək əməliyyatları, koronarangioqrafiya manipulyasiyası, ürək damarlarına stend qoyulması, müxtəlif göz və digər əməliyyatların aparılması uğurla davam etdirilir.

Qarşılıqlı əlaqələr yerli həkimlərin peşə bacarıqlarının artırılmasında mühüm rol oynayır. Belə ki, yerli həkim kadrları tərəfindən müstəqil şəkildə TUR, açıq ürək, ürək damarlarına stend qoyulması, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatlarının aparılmasına nail olunmuşdur. Artıq mürəkkəb cərrahi, o cümlədən açıq ürək əməliyyatlarının da Naxçıvanda həyata keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını almışdır.

Hazırda səhiyyə müəssisələrinin ən yeni tibbi avadanlıqlarla təchiz olunması davam etdirilir. Ötən il isə fizioterapevtik müalicələr üçün avadanlıqlar alınaraq 51 kənd həkim ambulatoriyasında qurulmuşdur. Elektroterapiya və ultrasəslə müalicə, ultrayüksəktezlikli cərəyanla müalicə aparatları, parafinəritmə qazanı, Solyusk lampası ilə müalicələr kəndlərdə insanların hərtərəfli səhiyyə xidməti ilə təmin olunmasına şərait yaratmışdır.

Muxtar respublikanın səhiyyə sistemində aparılan islahatlara uyğun olaraq Stomatoloji Mərkəz, Darıdağ Arsenli Su Müalicəxanası və Duzdağ Fizioterapiya Mərkəzinin publik hüquqi şəxsə çevrilməsi ilə əlaqədar ştat strukturu yenidən işlənib təsdiq edilmişdir. Səhiyyə xidmətlərinin səviyyəsini müasir tələblərə çatdırmaq, keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə cari ildən etibarən Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanmışdır. Gələcəkdə icbari tibbi sığortanın digər rayonlarda da tətbiqi səhiyyəni yeni inkişaf mərhələsinə çıxaracaqdır.

Səhiyyə sahəsində kadr təminatı ən vacib məsələ kimi diqqət mərkəzində saxlanılır. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində və Naxçıvan Tibb Kollecində ixtisaslı həkim və orta tibb işçilərinin hazırlanması muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə imkan verir. İxtisaslı tibbi kadrların yetişdirilməsi ilə yanaşı, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqət mərkəzində saxlanılır. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır.

Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə daim dezinfeksiya və dezinseksiya tədbirləri aparılır. Bunun nəticəsidir ki, son illər Ümumdünya Səhiyyə Təşkilatının müntəzəm monitorinqdə saxladığı əsas yoluxucu xəstəliklərə, o cümlədən salmonellyoz, bakterial dizenteriya, difteriya, epidemik parotit pedikulyoz, malyariya, leyşmanioz, poliomielit və tetanus kimi xəstəliklərə muxtar respublika ərazisində təsadüf olunmamışdır. Həyata keçirilən sosial-iqtisadi islahatlar, əhalinin yaşayış səviyyəsinin davamlı yüksəlişi, müalicə-profilaktika işinin nümunəvi təşkili, tibbi xidmətin keyfiyyətinin və əhatəliliyinin artması demoqrafik vəziyyətə öz müsbət təsirini göstərmişdir.

Həyata keçirilən profilaktik tədbirlərin səmərəli nəticələr verdiyini bildirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün muxtar respublikada insanların sağlamlığının qorunması, onların müalicə və müayinəsinin yüksək səviyyədə təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Səhiyyə sisteminin maddi-texniki bazasının müntəzəm olaraq möhkəmləndirilməsi, yüksək səhiyyə xidmətinin təşkili öz bəhrəsini verir. Artıq muxtar respublikada ciddi problem yaradan xəstəliklər yoxdur, insanların sağlamlığı daim diqqət mərkəzində saxlanılır”.***




Hazırda Naxçıvan Muxtar Respublikasında əhaliyə 228 tibb müəssisəsi tərəfindən tibbi xidmət göstərilir. Təkcə ötən il bu müəssisələrə 34 həkim və 94 orta tibb işçisi təyinat almışdır. Tibb müəssisələrində 713 həkim, 2 min 97 orta tibb işçisi çalışır. Naxçıvanın səhiyyə müəssisələrində çalışan ağxalatlı peşə sahiblərinin əməyi dövlətimiz tərəfindən həmişə layiqincə qiymətləndirilir. Onlardan 103-ü Azərbaycan və Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi adına layiq görülmüşdür.

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq səhiyyə sistemində elektron xidmətlərin göstərilməsinə başlanmış, qısa müddətdə nümunəvi tibbi informasiya sistemi qurulmuşdur. Cavan ailələrdə səhiyyə maarifi işini, hamilə qadınların və uşaqların patronaj xidməti, yeni doğulmuşların vaxtında qeydiyyata alınması, uşaqların Elektron sağlamlıq kartları ilə təminatı və ondan istifadə qaydasının öyrədilməsi məqsədilə “Ailə sağlamlıq məktəbləri” yaradılmış, məşğələlərin davamlı aparılmasına nail olunmuşdur.

*Ölkəmizdə, eləcə də muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına xidmət edir. Ümumdünya Sağlamlıq Gününü yüksək nailiyyətlərlə qeyd edən tibb işçiləri bundan sonra da muxtar respublika səhiyyəsinin inkişafına öz töhfələrini verəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Bildiriş***

“Türkaz” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti dayandırıldığından ləğv olunur.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ramiyyə Əkbərova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 265**